# Parlament seçkiləri yeni mərhələyə qədəm qoydu

## *Bu gündən təbliğat-təşviqat kampaniyasına start verildi*

***Bu il fevralın 9-na təyin olunmuş parlament seçkiləri yeni mühüm, həm də seçki prosesinin ən maraqlı və əsas mərhələlərindən birinə – təbliğat-təşviqat kampaniyasına qədəm qoydu. Artıq bu gündən deputatlığa namizədliyi rəsmən qeydə alınanların təbliğat və təşviqat kampaniyasına start verildi. Namizədlərin seçkiqabağı təşviqat kampaniyası qanunvericiliyə uyğun tənzimlənir, səsvermə gününə 23 gün qalmış başlayır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır.***



Artıq seçkiqabağı təşviqat kampaniyasına bu gün saat 08:00-dan etibarən start verilib. Mərkəzi Seçki Komissiyasının parlament seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin təqvim planına əsasən, bütün məntəqə seçki komissiyalarının qarşısında dəmir lövhələr quraşdırılıb. Qeydə alınmış deputatlığa namizədlərin həmin lövhələrdə öz şəkillərini və platformalarını yaya bilərlər. Bundan əlavə, müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılaraq, təbliğat və təşviqat məqsədilə məntəqələrin hər birində qapalı və açıq yerlər yaradılıb. Namizədlər həmin yerlərdə seçiciləri ilə azad və şəffaf şəkildə görüşüb, öz platformaları barədə məlumat verə bilərlər.

Bununla yanaşı, Mərkəzi Seçki Komissiyası seçkilərə hazırlıq işlərini davam etdirir. Qarşıdan gələn parlament seçkiləri ilə əlaqədar indiyədək dörd yaddaş kitabçası çap olunub. Onlardan biri “Deputatlığa namizədlər üçün yaddaş kitabçası”dır. Digəri isə müşahidəçilər üçün nəzərdə tutulub. “Müşahidəçilər üçün yaddaş kitabçası”nda onların hüquq və vəzifələri öz əksini tapıb. Maarifləndirmə xarakteri daşıyan digər yaddaş kitabçaları isə polis əməkdaşları və kütləvi informasiya vasitələrinin nümayəndələri üçün nəzərdə tutulub.

Yerli və beynəlxalq müşahidəçilərin qeydə alınması prosesi davam etdirilir. MSK-dan verilən məlumata görə, indiyədək 77 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib. Nüfuzlu beynəlxalq qurumların parlament seçkilərini müşahidə edəcəkləri barədə məlumatlar da alınmaqdadır. ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun rəsmi internet səhifəsində də fevralın 9-da keçiriləcək parlament seçkilərində seçki prosesini izləyəcək uzunmüddətli müşahidə missiyasının tərkibi açıqlanıb. 26 nəfərin əks olunduğu siyahıda Albaniya, Çexiya, Danimarka, Fransa, Almaniya, İrlandiya, İtaliya, Niderland, Norveç, Rusiya, İsveç, İsveçrə, Türkiyə və Birləşmiş Krallıqdan nümayəndələrin adları var. Seçki günü ATƏT-in əsas müşahidə missiyasının 350 qısamüddətli müşahidəçisinin səsvermənin gedişatını izləyəcəyi də bildirilir.

Əvvəlki parlament seçkiləri ilə müqayisədə bu il keçiriləcək seçkilərdə indiyə qədər rekord sayda deputatlığa namizəd var. Diqqətə çatdıraq ki, bu günə qədər 1534 nəfərin deputatlığa namizədliyi qeydə alınıb.

Bu fakt ölkəmizdə seçkilərin demokartik, azad və ədalətli, aşkarlıq şəraitində keçirilməsi üçün hər kəsə əlverişli şərait yaradılmasının göstəricisidir. Seçkidə 28 siyasi partiyanın nümayəndəsinin mandat uğrunda mübarizəyə qoşulması da demokratik ənənələrə sadiqlikdən xəbər verir.

Seçkilərə qatılan müxalifət partiyalarının nümayəndələri yaradılan şəraitdən razılıqlarını bildirirlər. Bugünədək hər hansı problemlə qarşılaşmadıqlarını bildirən deputatlığa namizədlərin səlahiyyətli nümayəndələri bütün prosesin Seçki Məcəlləsinə uyğun getdiyini bildirdilər.

**“Yeni Müsavat” qəzetinin sabiq baş redaktoru Rauf Arifoğlunun seçki qərargahının rəhbəri, ictimai fəal Çingiz Özgürün dediklərindən:**

– Hər bir vətəndaşın Konstitusiya ilə müəyyən olunmuş hüquqları var. Konstitusiyanın 56-cı maddəsində də göstərilir ki, hər bir vətəndaş seçicidir. Baxmayaraq ki, mən seçki qərargahının rəisiyəm, eyni zamanda, seçiciyəm. Seçkilərdə hər bir vətəndaşın öz fikrini azad ifadə etməsi üçün əlverişli şərait yaradılıb. Biz indiyədək ölkəmizdə keçirilən bütün seçkilərdə də bunun şahidi olmuşuq. Hazırkı mərhələyə qədər imzatoplama kampaniyasında, sənədlərin dairə seçki komissiyalarına təqdim olunmasında və imzaların yoxlanılmasında heç bir təzyiq və süni əngəllə qarşılaşmamışıq. İndi proselər qanun çərçivəsində, azad və ədalətli keçirilib. Bu gündən isə təbliğat-təşviqat kampaniyasına start verilib. Bundan ötrü müvafiq yerlər ayrılır. Ümid edirəm ki, seçicilərlə görüşlərdə və digər təşviqat işlərində heç bir problemlə rastlaşmayacağıq.

“Seçkiləri boykot” çağırışına münasibət bildirən Ç. Özgür bu yanaşmanın səhv addım olduğunu dedi: “Seçkini niyə boykot etməliyik? Əksinə, seçkiyə qatılmaq ən yaxşı təbliğat vasitəsidir. Biz imza toplayarkən, 500 ailəyə müraciət etdik. Bu ailələr namizədimizlə, məqsədimiz və məramımızla yaxından tanış oldular. Fürsətdən istifadə edib imzasını aldığımız ailələrin problemləri ilə də maraqlandıq. Bəzilərini qəzetimizdə və saytımızda dərc edib əlaqədar təşkilatlara çatdırdıq. Seçkini boykot etmək, əhali ilə təmasdan qaçmaq deməkdir. Kimin xalq arasında nüfuzu, hörməti varsa, bunu seçkilərdə sübut etməlidir. Siyasi partiyaların, ictimai-siyasi xadimlərin reytinqi və elektoratı seçkilər zamanı daha aydın şəkildə bəlli olur.

**Milli Dirçəliş Hərəkatı Partiyası Ali Məclisinin sədri Tahir Seyidov:**

-- Ölkə Prezidentinin seçkilərin keçirilməsi haqqında sərəncamı dərc olunan gündən bu mühüm siyasi kampaniyaya hazırlığa start vermişik. Əvvəl keçirilən parlament seçkilərində də iştirak etmişik və qalib gəlmişik. Əminəm ki, bu seçkilərdə də uğur qazanacağıq. Çünki partiyamızın cəmiyyətdəki nüfuzu getdikcə artır. Biz həmişə demokratiyanın, haqq-ədalətin tərəfdarı olmuşuq. Son illər bu istiqamətdə həyata keçirilən tədbirləri yüksək qiymətləndiririk. Ölkədə keçirilən köklü islahatlar, gənc kadrlara böyük üstünlük verilməsi, xüsusilə hərbi qüdrətimizin atrması, demokratik proseslərin getdikcə inkişafı, insan hüquq və azadlıqlarının müdafiəsinin prioritet sahəyə çevrilməsi hər birimizin sabaha olan inamımızı daha da artırır. Seçkilərə gəlincə isə bu sahədə şəffaflığın tam təmin olunmasını, demokratik ənənələrə sadiqliyi razılıqla qarşılayırıq. Bütün bunlardan sonra niyə seçkilərə qatımamalıyıq? Seçkilərə hazırlığa start veriləndən indiyədək hər hansı bir problemlə üzləşməmişik. İnanırıq ki, bundan sonra da xoşagəlməz hallara yol verilməyəcək. Seçkilərin azad və ədalətli keçiriləcəyinə böyük ümidimiz var və belə demokratik mübarizədə qalib olacağımıza əminik.

**Əliqismət BƏDƏLOV,**
**“Xalq qəzeti”**